

Ada(Şahi)

Şahi adasının xalqına

**A.Elyar**

# Kabus

Onlar daş atlarla gəldilər
Gölü içib çayları bəndə çəkdilər!...

A.E.

««...**Laçın** çaparaq atını qovurdu. Kəhər birdən-birə durdu. Qabaq ayaqlarını göyə qovzayıb bir qorxunc kişnədi. Laçın yerə yıxıldı. Və at hürküb yoldan çıxıb getdi.
Laçın görürdü: Bir sürü atlı ona tərəf gəlir. Üzlərində bağır çatladan üzlük, əyinlərində uzun gen, qulu qıssa, qara paltar, və əllərində çapacaq! Atlılar qəhvəyi, qara qırmızı, və boz atların üstündə, bağıra-bağıra ona sarı gəlirdilər.
Atların dırnağından bir qalın toz-torpaq dumanı havaya qalxmışdı. Onlar yaxınlaşdıqca Laçının gözləri qorxudan lap böyüyürdü; sanki çanağından çıxmaq istəyirdi.
İstədi gözünü yumsun, yuma bilmədi. İstədi əli ilə gözünün qabağını tutsun, tuta bilmədi. Hiss edirdi az qalır atların əl-ayağı altında qalıb əzilsin. Çətinliklə özünü yoldan qırağa çəkib adanın sahilində bir daşa söykəndi.
Görürdü: Çevrəyə bir zil qaranlıq çökür. Adamlar sürü-sürü fənar əllərində üz qoyublar dağa sarı qaçırlar. Ucadan inilti, çığır-bağır səsi qulağına gəlir. Və başı üzülmüş quşlar, qan fışıltısında kənarında atılıb düşürlər!
Kəskin bir yel, duzlu toz-torpağı üz-gözünə çırpır. Və dağ başında fənarlar yavaşcasına bir-bə-bir sönürlər.
Bir az geçərkən, səs-küv kəsildi. Quşların cəndəki yan-övrəyə səpələnmişdi. Bu anda bir ağır səssizlik çevrəni bürüdü.
Gördü: Üzlüklülər atdan yenib, qamçı qəmə, bir ipin dar halqası əllərində, neçə addımlıqda ona sarı gəlirlər.
«Gözümdən itin gedin! İtin gedin!» -Deyib bağırdı. Və öz səsinin cingiltisində özündən getdi.
Zəhərli ilanlar torpaq çəmən üstündə yol boyu züvürdülər.



Laçın, orta boylu, solğun, gözə arıq, əsmər, üzü kiçik, qələm qaşlı, işıq göz, və ağızı burunu yaraşıqlı, bir qızdır.
O elə, ilk baxışda, duruluğu, sevgini, görənin ürəyinə salır.
Ayağında sürməyi qıvraq başmaqları, başında mavi güllü yaylığı, qəhvəyi hörükləri, ortası tala-tala ağ gül ilə bəzənmiş lalə rəngli donu gözə çarpır.
Laçın Saray-da yaşayırdı. Şahı yarım adasının lap çox nüfuslu kəndində.
Ada Urmu gölündə gözəl təbiətli bir dağ-daşlı yerdir .Geçmişdə, yayda çayların suyu azalanda o yarım adaya dönürdü. Və el quru yolla çevrədəki şəhərlərə get-gəl edirdi.
Adanın kütləsi bir neçə böyük-kiçik kənddə yerləmiş idi. Gəmidə, əkin-biçində, bağdarlıq, heyvandarlıqda çalışırdı. Onun bulaqlarından duru içməli su zinəlirdi və yaşıl bir çevrəsi var idi.



Yerli köçərgi quşlar sahilin qəmişləri arasında yumurtlayırdılar.
Və uşaqlar dərsə gedirdilər.
Laçın anasının ölümündən sonra evin ikimci dirəki və atasının dayağı olmuşdu. Hiss edirdi anasından sonra adada yaşayış çox dəyişibdir.
Gölə axan çayların üstünə bənd vurmuşdular. Azalmış yağım və bəndə qalmış sulara görə quraqlıq çirkin üzünü görsətirdi. Dərin quyular gün-bə-gün çoxalırdı, və gölün böyük payı yavaş-yavaş quruyurdu. Yel ürək açma yerinə düz tozunu hər yerə səpirdi. İşsizlik, oğurluq, qaçaqçılıq, və ağır cəza üzərində gedən sözlər dillərdən əskik olmurdu.
Daha, həyat, bir sınıq-salxaq arabanın əski təkəri kimi, cıra-cırıla, çor- çomur içindən, geçib gedə bilməyirdi. Və yaşayış çarxının dolanış arzusu, dərin həsrətlə ürəklərdə qalmışdı.
Laçın o gün öz qəhvəyi arıq atını, Kəhəri, pəyədən çıxardıb, məhəbbətlə tumarlayıb, üz-gözündən öpəndən sonra bağrına basmışdı. Lalə, onun qonşu dostu, görüb demişdi:
«Qız hara gedirsən?»
«Atam yanına. Yalqızdır.»
«Kəhəri gözlə!»
«Kəhər mənim sevgimdir.»

Və atı minib zəmiyə sarı qovmuşdu.
Atası ona tapşırmışdı,"yaxşı olar evdə qalsın", amma laçın dözməyib, bir nahar bişirmişdi, istəyirdi onu atasına versin.
Kərəm, laçının atası, zəmidə belini əymişdi biçin biçirdi ki, kəhərin kişnəməsi onu qalxızdı. Kəhər qarışmış idi. Torpağı dırnaqlayıb yerində durmurdu. Kişi bildi ki, bir xəbər var.
«Nə olub belə, bə niyə tək gəldin? Hanı bə Laçın?» -Dedi.
Kəhər şaşqın və qəribə hərəkətləri ilə ona bildirdi ki, tez olsun, zamanı əldən verməmək gərək.
Amma bundan artıq eliyə bilmədi fikir və duyğusunu göstərsin. O ki, dəfələrlə Laçının pis halını görmüşdü diyə bilmədi, ömür boyu ağır yükləri daşıdığına dayaq, necə əziz və bir dənə dostunu əldən verir.
Və bu ona zəhərdən pis acı gəlir. Kimsə bilmədi o zaman ki, bu qızın tumarlayan, ürəyə yatan, səsi və öpüşü ilə başını onun bağrına basırdı, ya onu öz belinə alırdı, necə bir gözəl duyğu hiss edirdi.
Və indi o, necə qar kimi zərrə-zərrə əriyib aradan gedir. Əyə bunların hamısını desəydi, bir adam onun duyğusunu anlaya bilərdimi?
Kimsə bilmədi kəhərin ürəyində daha nələr qaynayıb coşub geçırdı.



Kərəm oraqçanı qırağa qoydu. Yeyin mindi ata, düşdü yola.
Yolda bir şey itirən adamlar kimi axtarıcı və dağ-dağalı baxışlarıla

hər yeri gəzirdi ki, birdən gözü Laçına sataşdı.
Atdan yendi. Kəhəri bir ağaca bağladı. Laçın daşın dibində düşmüşdü. Onu bağrına basdı. Pinəli əlilə alının tərini silib soruşdu:
«Laçın! Laçın! Qızım sənə nə olubdur?»
Qız gözlərini açdı:
«Ata gəldin? Mən qorxuram! » - Deyib, ağladı.
«Nədən qorxursan bala?»
«Adamcıqlardan! Səbətələrdən! Qaranlıqdan!»- Ağlar ikən dedi.
«Qızım, bir şey yoxdur. Səni qorxudan bir şey yoxdur.»
«Var! Getməyiblər. Genə gələcəklər. Bilirəm genə gələcəklər! Bağrımı yaracaqlar. İki aydı məni buraxmırlar. Siz onları görmürsüz, amma mən görürəm! Kimsə görmür, mən görürəm. Deyirəm amma heç kim inanmır.
Hamı kabusu yuxuda görər, mən onu oyaqlıqda daşıyıram. Bir boylu ana təkin ki, uşağını daşıyar. Onlar məni içimdən yeyirlər! Nə əllərindən qaça bilirəm, nə də onlara bir cavabım var! Tərpənmədən lalam- karam oturub hürüt-hürüt onlara baxıram. Ata, mən qırtı-qırtı yonulub tökülürəm! Mən qar kimi əriyirəm!...»
«Niyə, inanıram bala. Amma dayanmaq gərək. Çalış görsətəsən ki, qorxmursan.»
«Kaş ki, anamdan, bacımdan, qabaq mən öləydim!»
«Yox ! Elə demə! Sən yaşamalısan. Yaşayış ağır və rəhimsizdir. Amma şiv olub sına bilmərik. Tab gətirmək gərək!»
«Ölüm bələ yaşayışdan yaxçı deyilmi?»
«Yox, ölüm yaxçı dəyil. Ölüm işin sonudur. Sən hələ yaşayışın əvvəlindəsən. Qorxulara güc gəlməliyik. Həyatı yaratmaq gərək. Ona da bir yol taparıq. Dura bilərsənmi? Dur min ata gedək...»
**
İki həftə, üç gün sonra, Laçın xiyavanda idi, kütlə ilə.
«El gəlini can verir! »- Deyib bağırırdı.
**

Köç! Köç! Adadan köç!
Unutma Kəhər ilə adanın sevgisini.
Yox! O silməmişdi ürəyindən, röyalarından heç bir sevgisini.
*
Kəhəri Lalə minirdi. Və qara sandıqlardan danışırdı ki, həmişə su üzündə avara idilər!

□

Duvarların susması, quşların səsi, dərya
Yaş çəmənlər, duru şehlər, duz -tozu, dərya
Ayaq qoyursan yola, bir avara kimi
Heç də bilmirsən hara aparacaq səni
Təzə yollar, yeni sözlər, yeni həyat?
Yıxılmasan, sınmasan
Əyər görməyə gücün olsa, bəlkə.
İş ağrısı acısı, gözdə
Çörək atlı, sən piyada
İstər-istəməz atlının dalınca qaçmağın gərək.
Bağlı!
Qıfıllanmış yuxuya
Qarışmış röyalara. Ot-ələfə, dağ-dərəyə, çölə heyvanlara
Və göl qırağında gözü yola, çayların şaqqıltısına.
Bəlkə yel-tufan, özgə yollar aparmasın səni?
Yoxu? Dərin həsrət yuxusu?...
Ev uzaqdır, yuxu yaxın. Laçın! Yarıya bölünüb sənmi?!
«Qızım, oyan! İş vaxtıdır, oyan bala !... »
«Ata istədim kəhərin boynun qucaqlayam, o məndən boyun qaçırtdı!...»

«Ev uzaqdır, yuxu yaxın. laçın! Yarıya bölünüb sənmi?!
Uzaqlarda, balaca göllərdə sülüklər qaynaşırlar.»
«Gündüz, çörək
Axşam, duz
Baharın son ayıdır. »

*
Üfüqdə dərya üstündə, təzə çırtlamış günəş, ağaclarla binaların arasından qızıl tellərini yaymışdı.
Toranlıq çəni hələ çöldən çəkilməmişdi.
Çer Hacı Hüseyn, "Kontarat-çı memar", Hacı Zeynal-a Urmuda imarət tikirdi. İki bənna, altı əmələ işlirdilər. Bir ay iki gün idi. Memar binanın qurtulmuş qiymətini hesab-kitab eləmişdi və pulunu qıst inan hacı Zeynaldan ay-ba-ay alırdı. O çalışırdı məsalehin və fəhlələrin pulundan kəssin ki, özünə çox mənfəət qalsın.
Memar işçilərin yanında çox durmaz idi. Bənna onların işinə gözətçi idi.
İş sübh saat yeddidən başlamışdı. Laçın belçə elində sərəndi qoymuşdu torpaq ələyirdi. Əynində Manto, başında çarqət, qıçında göy iş şalvarı, qıraqdan baxanın gözünə uyğun gəlirdi. Ona yaxın bir kişi külüng əlində köhnə bir duvarı yıxırdı. Toz-torpaq havanı bürümüşdü. Laçın cum-culaq tər içində idi. Alnından axan tozlu tərin damcıları gözünə dolub yandırırdı.
Kərəm bənnaya sətildə qum-əhəng verirdi və Umud, təzə həbsdən çıxan gənc bir oğlan, kərpic atırdı. Bir az irəlidə obiri bənna-fəhlələr işləyirdilər.
Bir kişi, belində əsləhə, oradan keçirdi.
Gözü sataşdı laçına durdu:
« Bacı başıyın ört!» - Qalın bir səslə dedi.
Laçın başından bir az züvmüş çar qətini düzəltdi. Umud kişinin səsini eşidərkən dedi:
«Əyə düz deyirsən, başıyan bir leçək ört gəl işlə, görək necə onu saxlaya bilirsən. Səsin isti yerdən çıxır.»
«Çox danışma! Səni dindirmədim. » -Deyib getdi.
«Köpək oğluna yaxçı cavab verdin.» -Bənna gülümsənərək dedi.
«Yox, yaxçı cavab verə bilmədim. Getsin dua eləsin ki, tez qoyub getdi. Yoxsam ona elə bir söz deyəcəyidim ki, həmişə yana-yana qalsın.» -Umud dedi.

«Bir söz. Sən ki, dərs oxuyubsan, "daneşcu" da olubsan; və bilici bir adamsan, bəs bu lat-lütün dilini haradan öyrənibsən; olmuya bunun da dərsini alıbsan?»
«Onun da dərsini oxumuşam! Mən həm daneşcu-yudum, həm də “tor-duvarı” dalından baxmışam. Onların dilini yaxçı anlıram.»
«Qaç bir qucaq kərpic gətir!»
Laçın orda-burda yolçunun sözlərindən çox eşitmişdi. Amma heç bilməzdi nə cavab versin. Yalnız yadına salırdı ki, adada belə bir sözləri az eşidərdi. Və çöldə zəmidə quşlar kimi azad idi. Birisi yox idi ona diyə qıçın əyridir düz qoy! Hiss edirdi hər yandan çarmıxa çəkilibdir. Özü -özündən soruşdu:
«Laçın! Qul idin ya indi qul olubsan?»
Fikirli, belçəni torpaqla doldurub sərəndin döşünə atdı. İri daş-qumlar narın torpaqdan ayrılıb sərəndin qabağına töküldü.
« ...Fələk gəl sabit eylə hansı günüm xoş geçdi...» -deyib dodaq altı oxudu.
Göydə bir ala-qarğa qar-qar edərək geçirdi. Laçın bir nəfəs alaraq başını qovzadı ona baxsın. Birdən gördü köhnə duvar, altı metir uzununda, üç metir ənində, yavaşcasına titrəyir. Və iş yoldaşı onu dibindən qazır!
« Əmi qaç! Duvar gəldi!» -Çığırıb qırağa qaçdı.
Kişidə qaçdı. Duvar yatdı. Toz-duman qalxdı.
«Ay havar qışlarım!» -Əmələ deyib bağırdı.
Hamı yardım üçün qaçdı.
« Dəyməyin! Bu köpək oğlu ölməlidir! Ona mən deyirəm duvarı dibindən yıxmazlar, deyir “mən qabal tutmuşam, istirəm tez qurtarıb gedim, uşağım naxoşdur”. İndi öl! Ölüm cəzandır! Köpək oğlu!»
-Bənna qaça-qaça dedi.
Adamlar gəlincə laçın onu torpaqdan çıxartdı. Kişinin "Vay dədəm- vay..." səsi kəsilmirdi. Əl-ayağı bütün yaralanmış idi...
Onlar bir Taksi çağırıb onu tez mərizxanaya göndərdilər.
Laçın ayaq üstə quruyarkən, özünü lap itirmişdi və bütün

dərdlərini də unutmuşdu . Qan-tərini, bel-ağrısını, Fəhlələrin özgə-özgə baxışlarını, və yarım fəhlə haqq almağını da.
Ürəyi tələdən qurtulub qaçan bir quşun ürəyi kimi çırpınırdı. Ölümü bir addımlığında görmüşdü. Və bir başqasını da onun ağzından qapmışdı. Fikri getdi fəhlənin ev-uşağı yanına:
«Əmi ölsəydi kim onun ev-uşağına çörək verəcək idi. Əyər işdən qalsa haradan yeyib içəcəklər?» -Öz-özünə deyib soruşdu.
«Laçın yuxlama! Tez-tez ələ, torpaq lazımdır!» -Bənna əmrli bir səslə dedi.
« Baş üstə usta.» -Laçın cavab verdi.
Və heç bilmədi niyə belə sözə baxan olmuşdu. Bəlkə də buna görə ki, çox eşitmişdi: "İstəsən çörək yiyəsən, hər nə dedilər baş üstə de!" Sözü ağır-yüngül etməyə onun vaxtı yox idi. Gedib-gəlmə, yorğun düşüb yatmaq, zamanı ona qısaltmış idi.
„Hər nəyə baş üstə de! Laçın! Qul idin ya indi qul olubsan?"
Ağlına yerləşmirdi. Atasının sözü yadına düşdü:
«Yaşayış ağır və rəhimsizdir. Amma sınmamaq gərək.!» -Və artırdı:
«Çox da zalımdır!»
Belçəni torpaqla doldurdu, tez-tez sərəndin döşünə vurdu.
O gün axşam, memar, duvar altından can qurtaran əmələnin "haqqını" Umuda verib dedi:
« Əsgərin evinin harada olduğunu demişəm, onun pulunu aparıb versən yaxçı olar. Sabah cümə, iş də tətildir.».
« Verərəm.» -Umud dedi.
Laçın atasıynan danışandan sonra:
«Onun əhvalını soruşmaq üçün, olar məndə gələm?» -Umuda sarı deyib soruşdu.
«Bu işlərə qarışma! Sən hələ uşaqsan!»
« Mən uşaq dəyiləm. 16 yaşındayam.»
« Elə odu ki, uşaqsan da. Hələ 18 yaşında olmamısan.»
«Bahana gətirmə! Bir yol de, yox, qurtar.»
«Yox!»
□

«Yolda saysız ayaqlar, quşların yatı çağı,
Oğurlayıblar çörəyi, daş altındadır çörək.
Qarnı ac, əli boş, evə dönmək gərək.
Laçın bala! Qal! Cum şirin yuxulara!
Çörək ağrısını, qoy mən özüm çəkim.
Bala! Qurquşum durasını, qoy mən özüm kəsim!»
«Ax! Ata! Ata!
Ağrından məni uzaqlatma!
Oyanış kabuslarımı daşımağa,
Gücüm yox mənim!
Apar məni özünlə, ağrı-əmək içinə!»
**

Sübh qarğalar yuxudan durmamış, yolu qatmışdılar qabaqlarına . Qoca, cavan, uşaq. Çantalı, çantasız. Çiyini belçəli belçəsiz. Köhnə par- paltarda. Quşlar təkin, bir-bir, iki-iki yığışdılar. Yirmi, əlli, bəlkə də yüz adam .

Saat beşi görsətir. Cümə günüdür. Onlara cümə ilə şənbənin bir o qədər də fərqi yoxdur. Meydan cümə günləri də, ayrı günlər kimi, fəhlə inən dolu olur. Çox az adamlar bu gün evdə qalıb dincələrlər.

Saat altıdan yavaş-yavaş fəhlə tutanlar tapılıb gələrlər. Nəştovluqda, Umud, yay köynəyi ilə Cinz şalvarı əynində, sport başmaqları ayağında, meydandan geçirdi. Fəhlələrin içində gözü laçınla atasına sataşdı. Getdi onlara sarı salam verib dedi:

« Ay balam! Siz burda neynirsiz? -Və dodağı gülüşlü əl verdi.

«Dedik yaxşıdır bu gün evdə qalmıyaq, iş dalıca olaq. Bir gün də genə bir gündür. Donquzdan bir tük də çəksən qənimətdir.» - Kərəm dedi.

« İş necədir?»

«Gördüyün kimi. Bu gün əlli kişidən beşi işə getmiyib. Durmaqdan ayaqlarımız şişibdir. Birisi yoxdur, kefimizi soruşsun.»

« Bir dədə-balaya, balada ki, qız ola, kim hazır olar iş versin?»

«Laçına dedim: Qal evdə, qoy mən gedim! Yox dedi. Əl çəkmir da. Indi də burada hamı gözünü bərəliyib bizə baxır. Deyirlər bu kişi də lap səfehliyib ha! Biz kişi ola-ola, iş tapa bilmirik, bu özünə heç, qızına da iş tapır.»
«Bina işi arvad-uşaq işi dəyil. Hacının yanında işləməyiz, bir xoş təsadüfdür.»
« Sən hara gedirsən?» -Laçın soruşdu.
«Gedirəm o axmaq kişinin pulunu verəm. Olmuya səndə istirsən gələsən?»
«Aparsan gələrəm.» -Laçın gülüşlü dedi.
« Atan razı olsa gələ bilərsən .»
« Qızım gedirsən get. Mən də gedirəm evə. Bu gün çörək daş altında qaldı.»
«Ata nıyaran qalma! İndi qayıdıram...»

Meydandan bir az uzaqda bir Ləndover maşını xiyabanın qırağında saxladı. Durt kişi atıldı eşiyə, Laçın və Umudun üstünə hücum gətirdilər. Onları qollarından tutub, kənara çəkdilər.
«Bu oğlan sənin nəyindir? Hara gedirsiz?» -Bir gəzmə Laçından soruşdu.
«İş yoldaşımdır. Gedirik bir yaralı yoldaşın pulunu verib əhvalını soruşaq. O dünən duvar altından can qurtarıbdır.»
« İşiyizin adı?»
«Bina işi. Bir hacıya bina tikirik.»
Gəzmələr Umudu da danışdırdılar. Sonra, bir-birlər ilə pıçıldaşıb dedilər:
«Gedin dua eləyin sözləriz tərsə çıxmadı, yoxsa işiz yaş idi. Xoş gəldiz.»
Bu incitmədən sonra, elə ki, onların fikri öz yerinə gəldi, Umud Laçına dedi:
« Bu xarabada qız inan oğlanın xiyabanda getməsinin, min bir baş ağrısı var. Mənim də adım it dəftərində ala itdən bəllidir. Adamı götürüb aparalar, gərək gedə çomur ayaqlıya, hey eşşək gətirib mərəkə yüklüyə.»

«Mən nə bilim burda adamın nəfəs almağını da güdürlər.» -Laçın dedi.
«Həyə, sən bilməsən. Dünən adadan gəlibsən deyirsən bə hələ hər yer adadır. Bu qonşunun, o qonşunun başı ağrıdı qaçıb kefini soruşa bilərsən. Yox dostum, burda sağ göz, sol gözü tanımır. Qardaş da qardaşı. Ağzın dolu qan olsa yerə tüpürmə! Hami bir-birinə gözdür. Gözün gördükcə xəbərçi, iki üzlü, hilə kar sıraya düzülüblər. O ki, deyir sevirəm səni, irinc qəməsini vurmağa gəlibdir. Və başsız bədən istiyir. Sevgi, məhəbbət, yaxşılığı, kimsə tanımır. Çünki, belə bir şeyləri görmüyüblər, və bir zaman yaşayışlarında da olmuyubdur; olsa da anlamıyıblar. Biri səndən məhəbbət görsə, deyər bə hələ malında gözün var ya canında. Bunların başqa bir hissləri yoxdur; olub-qalanı da ölübdür. Dəyərli fikir duyğularını yenidən diriltmək, heç tarının da işi dəyil! Belə bir adamlara yas tutmaq gərək!»
«Anlıram.»
«Yaşayış üçün hələ çox acıları dadmalıyıq.»
«Umud nədən ötrü dustaqda idin?»
«Hamıya bir balaca rahat yaşayış istədik. Dedilər söz bircə biz diyəndir. Sən dinmə, danışma, kəs səsiyin. Əlbəttə bircə mənə yox, minlər cavana dedilər. Hamını vurub tutub dağıtdılar. Ölən öldü, qaçan qaçdı, tutanı dustağa basdılar.»
«Hərdən fikir elirəm, necə olar ki, insanlar yaşayışda, iş, ev, dərmansızlıq, yoxsulluq üzü görməsinlər; birisi onların hər şeyini güdməsin; özləri seçsinlər nə istəyib istəmirlər; bir az rahat yaşasınlar?»
«Mən də bu sorğulara qabaq gəldim. Hər gün onlara toqquşdum. Uşaqlıqdan indiyəcən. Onlara düz cavab tapmaq rahat bir iş dəyil. Hələ lazımdır ayrıları da, düz cavablara çatsınlar. Yol tapsınlar. Məcburuq bəzi şeyləri də kitablarda axtaraq. Onları öz həyatımızda ağır-yüngül edib özümüz üçün bir yol seçək. Vaxt ikən sənə bir şeylər taparam oxuyarsan, bəlkə yardımçı oldular.»

Laçın və Umud xiyavanda , tüstü və səs- küv arasında , rəng bə rəng maşınların gəlib-getməsində, danışa-danışa Əsgərin evinə getdilər. Sonra Laçın öz evlərinə qayıtdı.
«Gəl qızım, gəl! Nahar hazırdır. Hən, de gorum yazıq kişidən nə xəbər varmı?» -Kərəm soruşdu.
Qız doluxsunarkən:
«Ata, Əsgər əmi gildə yas idi! Evə girmədik. Pulu qapıdan verib qayıtdıq. O məriz-xanadadır. Amma uşağı ölübdür!» -Laçın bunu deyərkən yaş gözlərindən pırıldadı.

□

«Bala Laçın!
Kimsə səni anlamaz
Suyu iç elə
Çörəyi də!»
«Ata! Şorakətdə buğda!?
Nə buğda göyərdi
Nədə söz!»

«Quşların yükü duz!»
«Quru göl!»
«Acı keçmişlər
İtən gələcək
Dalımdakı yük.»
«Zamanı daşıyıram mən.
Ortadadır
fırtınalı dalğalar.»

□

Qaranlıq düşüb.
Laçın nan Kərəm işdən çıxıb gəlirlər. Xiyaban çox qarışmışdır. Hamı tələm-tələsik istəyir evinə qayıtsın. Yük daşıyan maşınların səsi, adamların uca-uca danışıqları, duzlu toz havanı bürüyübdür. Kərəm yolun ortasında bir durdu, girdə börkünü yuxarı verərək əlini qaraşın üzünə, qalın bığlarına çəkib Laçına sarı dedi:

«Evdə yeməyə bir şey yoxdur. Yol üstündə də tapılmaz alaq. Sən çox yorğunsan, get evə! Ayaqların dalınca gəlmir. Mən gedim bir az ayın-oyun alıb gəlim. Tez qayıdıram.»
«Olsun ata, tez qayıt!»-Laçın bir yorğun səslə cavab verdi.
O evə yetişənəcən piyada çox yol gəldi. Yolda ucu-bucaqsız fikirlərinin ardını tuta bilmədi. Gözləri öz-özünə yumulurdu, və beyni sözünə baxmırdı. Sanki işdən düşmüş idi. Balaca həyətdən geçib bir üç-ü-dörd otağa girdi. Evi köçdən sonra kiraya tutmuşdular. Onların yatıb oturmağa yalnız bir otaqları var idi. Onun bir bucağına qab-qacaq, obiri bucağına da yastıq, yorğan-döşək yığmışdılar. Və iki güldan , içində qızıl gül, pəncərə qabağında idi. Otağın tərkinə bir köhnə kilim salmışdılar.
Laçını aclıq, yuxusuzluq, yorğunluq və ürək çırpıntısı bərk sıxırdı. Pəncərəni açdı. Yaylıq, "manto" və çantasını otağın bucağına qoydu. Süfrəni gətirib saldı; boşqabları düzdü. Bir göz dolandırdı, gördü bir boşqab əskikdir! Getdi gətirdi. Qoyanda süfrə gözünə boş gəldi!
Pəncərəyə sarı baxdı. Bir ağ paltarlı kişi, boşqab əlində, duzlu bir sonanı ona buyur deyirdi! Laçını qorxu basdı.
«Kim siz?» -Bir titrək səslə soruşdu.
Cavab gəlmədi. Laçın yerində dondu:
«Al! Yemək dadlıdır.» -Kişi boşqabı əlində tərpədib anlatdı.
Və uzun iti pıçağını görsətdi ki, elə özü sonanın başını kəsib, əti halaldır.
Laçın ixtiyarsız yavaş-yavaş ona sarı çəkildi. Yuxulu-yuxulu yeriyən kimi. Kişinin üzü bəlli deyildi, kabusda gördüyü adamlar təkin.
O vüqarla pıçağını laçının boynuna sarı apardı və birdən, iti bir hərəkətlə, qızın boğazını vurdu! Laçın, onun biləyini göydə tutdu! O, koxa şişman cəmdəyini qızın üstünə saldı. Laçın dalı üstə yerə dəydi. Və kişinin əl- ayağı altında başı üzülmüş quş kimi çabalıyıb çığırdı:
«A...t...a!»

Kərəm qapıdan girdi. Laçın kilimin üstündə əl-ayaq çalırdı. «Laçın! Laçın! Gəldim bala !» -Deyib onu bağrına basdı. Laçın gözün tikdi atasının gözünə və bir neçə an elə, qaldı: «Gec gəldin, boğazım qanıyıbdı? »-Bir titirək səslə soruşdu. «Yox qızım, sən sağsan. Bir şey olmuyub, nigaran olma!» «Ata məni yalqız qoyma! Boğazıma bıçaq vururlar. Çörəyi yox, quşların cəndəyini mənə buyur deyirlər. Doktor deyib yalqız qoyma məni.»
«Yox, səni yalqız qoymaram bala. Xəyalın rahat olsun. Bir də çaşmarıq. Amma bunu bil ki, bu şeylərin hamısı geçib gedəcək. Oyaqlıqdakı kabuslarıyın da sonu var. Qalx ayağa çörək gətirim, acsan.»
«Ha zaman qurtulacaq? Mən qorxu yuvası olmuşam. O zaman qurtular ki, daha mən yuxam. Göz açandan hər şeyi bir-bir əldən vermişəm. Ana-bacımı, dost və qardaşımı, yer-yurdumu. Hamısını. İndi bircə siz mənə qalıbsız, qorxuram sizi də əldən verəm. Doğum yurdumu əldən verdim. O yeri ki, daş-qumuna, ot-ələfinə, çay-çeşməsinə, dalğalarının ətrinə vurulmuşdum. Elə ki, Kəhəri, Laləni də məndən aldılar. Ata! Səndən ayrı kimim var mənim ? Sevgi ilə dərs oxurdum onu da əldən verdim.
Mən hər şeyimi itirmişəm. İndi hər yerdə öz itkinlərimin dalısıca gəzirəm. Əldən vermə qorxusu məni dəli eləyib. Burda bir "tula" kimi düşmüşəm sənin dalınca, istəmirəm bircə dirəyimi də əldən verəm, yalqız qalam.
Həmişə quru-qurusuna sevinmişəm böyüyüb bir iş tapacağam, özümə ev tikib atama yetişəcəyəm. Amma günü gündən pis umudsuz olmuşam; və daha artıq qəm -qüssəyə cumuşam. Xoşluqlar bütün yuxu xəyal olublar. Tərsinə, qara günlər, acı şeylər yaşayışımı yaradıblar. Bilmirəm, öz axır-aqibətimizdən çox qorxuram. Yaşayışın düzəlməsinə heç bir umudum yoxdur. Bir zərrə də. Bilmirəm hər şey niyə belədir, niyə belə olubdur. Bəlkə də zalım fələk bizimkini belə yazıbdır.»
«Bala mən də bilmirəm hər şey niyə beldir. Amma bunu bilirəm ki, insan bilmədiyi şeylərin adını fələk qoyubdur. Onları bilsə

fələk də işdən düşər. Qızım, sən hər şeyi əldən veribsən, məndə vermişəm. Acı keçmişlər üçün özümüzü aradan apara bilmərik. Keçmişə fikir vermə, həmişə gələcəyə qabağa bax, burax acı keçmişləri! Keçmişin düyünü keçmişdə qalıbdır, açılan dəyil. Gələcəyə fikir verməliyik.»

«Bilirsiz, öz əlimdə dəyil. Tutmaca gələndə ixtiyar əlimdən çıxır. Heç bilmirəm necə cumuram. Əl çəkmirlər da!»

«İndi bir balaca iş tapmışıq başımızı dolandırırıq; işsiz dəyilik. Ayağımız burada bərkisə göndərərəm dərsiyin də oxuyarsan. Adadan  bir yolluq əl çəkməmişik. Orada yaşayış olsa qayıda bilərik. Ürəyin rahat olsun. Qaldı ki, biz bu tufanlardan keçmişik. Dəmir idik polad olmuşuq. Gərək heç zaddan qorxun olmasın. Bizi dəyirmanın bu yanından ölü salsan, oyanından diri çıxarıq. Tərsə fikirləri burax! Sənə bir qadın işi də taparıq. Dərsiyin oxuyarsan, özüyən ev də tikərsən. Dur süfrə başına, acıq! Şamdan sonra istəyirəm sənə Koroğlu və Əsli-Kərəm` dən oxuyam. Bir misra sən oxuyarsan, birini də mən.»

Elə ki, Laçın nağılların adını eşitdi başladı:

«Atəş Kərəm, tüstü Kərəm, yan Kərəm!
Ata, gəl!»

Kərəm ikimci misranı gəldi:

«Əsli olsun sənə qurban, can Kərəm!...»
«Qul deyərlər qulun boynun burarlar»
«Qullar qabağında gedən tirəm mən...»
«Kərəm yandı, əsli yandı, mən yandım.»
«İndi onların eşqini mən inandım...»

□

«Ata!
Damcı-damcı qan
Dəniz-dəniz əmək
Dənə-dənə inci
Üst-üstünə düzürük.

Öz əlimizlə

Yeni bir qat tikirik
Yer üzünə!»

«Laçın, bala!
Bu nə hikmətdir
Bələ bir əllər
Belə çılpaq
Bələ bom-boşdur?!....»

**

Laçın xiyabandadır. Təzə ütülü paltarlarını geyib, Çantasını çininə asıb, fikirli, iti addımlarla, adamların arasından geçir.
Hava istidir. Gəzmələr çapırlar. Və xalq onların yürüşündə əsir. Qoca-cavan, uşaq- böyük, evli-subay...
Həm də, süd əmər uşaqlar. Onlar yerlərini batırarkən, Pampers`lərini dəyişə-dəyişə ağlayıb çığırırlar.
«Bacı! Uşağı yolun ortasında lüt eləyibsən ki, nu olsun; görmürsən hamı sizə baxır?!»
«Qoy get ağa! Qoy get! Sıçmalı şeyə sıçarlar. Uşaq hər şeyi batırıb!»
Laçının gözündən heç bir şey yayılmırdı. Amma onun fikri, çox ayrı yerdə idi. Umudun yanında. Fikr edirdi, bu iş yoldaşı, qızıl gülə bənzəyir. Onun sözündən həm dinc alırdı, həmdə ağrı. Özü-özünə dedi:
«Hərə bir təhərdir. Kim-kimə bəzəməz. Qızıl gül xarsız olmaz, heç könül qubarsız olmaz...»

Bu fikirlərdə idi ki, barmağını qoydu zəngin üstünə basdı. Bir neçə an sonra Umud xiyabana baxan pəncərədən başını çıxardıb:
«Gəldim!» -Dedi . Və qapını açdı.
«Salam. Necəsən, yaxçısan?»
«Yaxçıyam.»
«Gəl üstə!»

Laçın evə gircək hər şeyi gözdən geçirtdi. Kitab qəfəsəsinə, yazı mizinə, aşpazxanaya, qab-qacağa, moketə, və habelə qıvır-zıvırlara bir baxış saldı.
«Umud elə bir otağın var?» - Deyib soruşdu.
«Bəs deyirsən neçə dənə olsun. Kefin yaxçıdır? Buranın kirasını da çox çətin ödəyirəm. Əyləş!
O oturdu:
« Niyə duvara bir əkizdən zaddan vurmamısan?» -Soruşdu.
«Hələ bir şey tapmamışam.»
«Bir şey gətirmişəm. Bəlkə sevdin.»
«İşin rast olsun. Mənə But düzəltmə! But-mut inan aram yoxdur.»
«Yox! Büt dəyil. Bir daraqdır.»
«Daraq?!»
«Həyə, daraq.»
«Baxım.»
Laçın darağı çantasından çıxardıb ona verdi.
«Ahan! "Sünbül daraq"! Küləşdən. Dəstəsi qızıl küləş. Dişləri də qılçıqlı sünbüldəndir. Bu da asqısı.»
«İndi bunu xoşladın, ya qaytarım aparım?»
«Yox! Əllərin ağrımasın. Çox gözəldir. Özün toxumusan?»
«Həyə, öz işimdir. Adadan gətirmişəm. Toxumaqda əli suluyam. Hər şey əlimdən gələr.»
«Bəs de hünərli adamsan, dostum!»
«Sən necə? Sənin əlindən nə gələr?»
«Düzü heç zad. Mənim iki gözüm var, bir qələmim. Gördüyümü yazaram.»
«Elə oda bir hünərdir.»
«Bilmirəm, bəlkə.»
«Umud havaxtan yalqız yaşayırsan? Ata-anan heç buraya gəlib-elər?»
Umud ki, yazı mızının sınıq-salxaq səndəlində oturmuşdu:
«Çoxdandır tək yaşayıram. Həyə, ata-anam, bacı- qardaşım, hamısı mənə baş vurarlar. Amma az. Çox mən onları yoxlaram.» -Dedi.

«Niyə yalqız yaşayırsan? Məyə onların yanında sənə bir yer yoxdur?»
«Niyə, var. Amma mənim suyum heç kəs inən bir arxa getməz.»
«Bəllidir. Öz günahındır. Hamını sancırsan. Səndən ıraq, noxuş olub düşüb qalsan, kim sənə yetişəcək?»
«De, burada düşüb ölsəm kim məni götürəcək? Öldüm də öldüm. Cəhənnəmə tünnə! Az fikirim var, hələ onu da düşünməliyəm? Tıncıx iyimdən xilas olmaq üçün dirilər öz işlərini görəcəklər, xəyalın rahat olsun. Gəl! Boşqab da burdadır, istədin yeyərsən. Bağışla! Almadan suvay bir şeyi evdə yoxdu. İndi çay da qoyaram.»
«Olsun. Önəmli dəyil.»
«İş dalıcaydın, necə oldu?»
« Səbzə karxanasına getdik, arvad və kişi işlir. Bir xəbər yoxdur. Ayrı yerlərə də gərək baş vuraq.»
«Kompot karxanasına da  gedin. Orda da arvadlar işlir.»
«Hətmən.»
«Yaxçı oldu özün gəldin. Kitablara bax, hər hansı dərdiyən dəysə götür. İstədim özün gəlib seçəsən.»
Onlar komoda sarı getdilər.
«Çeşidli mövzulara görə kitablar var.» -Umud dedi.
Laçın qəfəsədən bir kitab çıxardıb ünvanını oxuyub dedi:
«Başa düşmədim!»
«Bu uşaqlar üçün dəyil!»
«Umud incitmə məni! Qoca kişilər kimi danışırsan. Elə bil özün çox yaşlısan. Təzə 21 yaşında olubsan.»
«Yanlış! 22 yaşındayam.»
«Yaxçı, 22 ol, ki nə olsun?»
«Laçın, bir sıra adamlar cavan ikən qoca olarlar.»
«Bir sıra adamlar da, təzə gənclikdə ağıldan baliğ olarlar.» -Laçın cavab verdi.
«Düzdür.»
«Bəs de görüm burda mənzur nədir. Yoxsa acıqdan bunu aparacağam.»

«Apara bilərsən. Amma mənim nəzərimə yaxçı olar ki, 18 yaşından sonra bunu oxuyasan.»
«İçində nə yazıblar?»
«İnsan haradan gəlib, haraya gedir? Belə bir şeylərdən bəhs edir?»
«Atam deyir insan yerdən gəlib, yerə də gedir. Gül kimin gəlir, tikan kimin də gedir.»
Göy ot təkin bir gün bitir, bir gün də solub aradan gedir.»
«Buda bir nəzərdir.»
«Ağıla batan dəyil?»
«Niyə, amma kəsirdir.»
«Nədən?»
«Yaşayışı gözəlləşdirmək, həyata məna vermək üçün, bir sözü yoxdur.»
Laçın söz arasında qəfəsədən bir dəftər çıxardıb soruşdu:
«Bu da kitabdır, əl inən yazılıbdır?»
«Həyə, əl inən yazılıbdır.»
Laçın kitabın ünvanını oxuyub baxışını Umudun yaşıl gözlərinə tikərkən soruşdu:
«Mənzuru elə bizim bu öz işimiz və muzdumuzdur?»
«Həyə, düzdür.»
«Bunu aparacağam.
«Apar!»
O bir şer kitabı və bir roman da seçdi. Sonra onlar oturdular yemiş yeyib çay içdilər.
Umud ona sarı dedi:
«Laçın sənə deyim ki, Ürəyimin dibində bir qorxu kök bağlayıbdır. Üzümdən ötrü yox, səndən ötrü. Qorxuram, sualların üçün, çətinliklərə düşəsən. Çün bu xarabada fəhlənin haqqı yoxdur elm sahabı olsun. Haqqı yoxdur dostlarıla çox gedib-gəlməsi olsun. Hökumət fikir birliyindən qorxur. Gəzmələri görürsən ki, hər yerdə sülənə-sülənə, hamını güdürlər.»
«Qələt eləyirlər mənim oxumağımın qabağını alırlar. Mən həm dərsimi oxuyacağam, həm də hər kitabı ki, sevirəm oxuyacağam.»

«Təhsil, məsələ dəyil. Kitabları oxuyarsan, gedib imtahan verərsən. Çətinlik də olsa yardım edərəm . Qışda da çox vaxtımız var.»
«Bu işdən ötrü atamla danışmalıyam. Dərdimi anlamağın üçün çox sağ ol.»
«Fikrin başında olsun, bəlaya gəlmiyəsən. Oxuduğun şeylər bir kəsin əlinə düşməsin. »
«Olsun, diqqət elərəm.»
«Bəs sənə bel bağlıya bilərəm?»
«Əlbəttə, ürəyin rahat olsun.»
«Umudum var etimadımı şaxlıya biləsən.»
Laçın baxışlarını onun seyrək bığlarına, çatma qaşlarına tikərək dedi:
«Arxayın ol!»
«Bəs sabah, iş başınacan.»
«Sabahacan.»

□



Laçın  eşiyə çıxıb evə sarı yola düşdü. İkindi çağı saat dörd idi. Yolda iki uşaq, qız və oğlan, saz çalıb adamlardan pul yığırdılar. O, bir az onların yanında dayanıb sazın səsinə qulaq asdı. Gəzmələr yığıncağı dağıtmaq üçün tapıldılar. Onların birisi uzaqdan Laçına sarı bağırdı:

«Xanım dur! Çərqətin...?»
Laçın durmadı. İti addımlarla  uzaqlaşdı. Gəzmələr düşdülər dalıca. O götürləndi. Girdi bir küçəyə və dal-küçələrə. Bir qapının yanı açıq idi. Girdi içəriyə, qapını bağladı. Bir azdan sonra qapının dalından gəzmələrin səsini eşitdi ki, deyirdilər:
«Burada dəyil.»
Ev sahabı bir qoca arvad idi:
«Qızım nəmənə olub, bişərəflər qovalayıblar?»-Gəlib soruşdu.
«Bəli.»
«Çərqətindən bəllidir, züvüb düşüb boynuyan.»
Laçın leçəyini düzəltdi.
«Sudan, zaddan, bir şey içirsən?»
«Yox! Çox sağ olun. Daha zəhmət vermirəm.»
«Bəs gəl dal-qapıdan get! Əyə buradan getsən ola bilər ki, genə ələ düşəsən. »

O qoca arvada xuda-hafiz deyib evlərinə sarı yola düşdü.
«Laçın! Sənə arxayın ola bilərəm?» -O yolda dodaq-altı özü-özünə deyib soruşdu.

□

« Ata!
Yuxulu gəzmələrimdə
Avarayam!

Harada quylayıblar
Diri-diri gündüzlərimi?
Harada  quylayıblar
Uçuş qanadlarımı?

Bax!
Gör necə yatıb
Uşaq böyük
Gecənin qurquşumunda,

Darda!...»

«Qızım!
Hamı qullar
Avaradırlar
Hamı qullar
Yaralı
Ac
Zəncirdədirlər
Burada hamı güllər
Yatıb
Gecənin qurquşumunda
Darda!...»

«Qayığım
Atım
Yaşıl çiskinli dağlarım
Coşqunlu dalğalı mavi sularım
Gümüş ay işığım
Yağışım, qarım
Haradadır o uçuş qanadlarım?
Bax!
Gör necə yatıb
Uşaq böyük
Gecənin qurquşumunda
Darda!...

Həmişə gözüm yoldadır
Qulağım səsdə
Bütün varlığımla
Yaradan qayıq
Balıqlar kimi axa dalğalar üstə.

Qürbətin dənizi yox

Suları dayaz
Gözəl balıqlar ölür
Kirli sularda!

Haradadır o uçuş qanadlarım?
Gör necə yatıb
Uşaq böyük
Gecənin qurquşumunda,
Darda...?»

□



Gecə kölgəsini ay işığında yayıbdır. Bərk bir yel, duzlu toz-torpağı tovlayıb Laçının baş-gözünə çırpır. O ayaq yalın, başı açıq, xəlvət bir xiyabanda gedir. Dizinə cən uzun, qolu qıssa, incə bir ağ don geyibdir. Burda-orda yarıyacaq yanmış evlərdən, tüstü qalxır. Bir ağır səssizlik ətrafı bürüyübdür.

Xiyabanın o tayında, dar ağaçalarındakı ölülər yeldə tərpənirlər. Bu tayında isə adamlar kirli əski par-paltarda, əl-ayaqları bağlı səssiz oturublar. Baxışın işıq telləri gedib-gəlirlər. Kiçik bir dərbəçənin dəmir milləri arasından, bir baxış teli, ona sarı gəldi:
«Qız, sən hara, bura hara?»
«Umud inən Kəhəri axtarıram.»
«Umud, o uzaqlardadır.»
«Kəhər necə? Bəs Kəhər haradadır?»
«Kəhəri bilmirəm.»
İstədi soruşsun: «Sən kim sən?» -Amma o getmişdi.
«Dəliyə bax! Dəliyə!» -Uzaqdan gəzmələrin səsi gəlirdi.
Meydan tərəfindən laçının qulağına səs-küv gəldi.
«Uşaq, çəkil qırağa! Düşər-düşməzi var. Düşərsiz olar, dəli olarsan! Yaxınlaşma! Əl-ayağını bərk bağla!...»
Laçın meydana sarı getdi. Meydana çox adam yığışımdı. Qəssab bir iti uzun bıçağı camaata göstərib dedi:
«...Çox itidir. Ağrı çəkmiyəcək. Gözüyün yumub-açana, başını bədənindən ayıracağam. Qan fışıltısı az çəkəcək!...»
Laçın yığıncağa girdi. Kəhəri, əl-ayağı bağlı, yerə uzatmışdılar.
«Kə...hə...r!»-o, atı görcək elə bağırdı ki, səsi hər yerdə cingildədi. Bütün baxışlar Laçına sarı döndü. Və Kəhərin mehriban duru baxışları da. Çox ayrılıqdan sonra. Laçın onu üz-gözündən öpüb qəssaba dedi: «Atı burax!»
«Kərəmin qızı! Pulunu verməyincə buraxmaram. At mənimdir. Önü almışam. Çörəyim çıxa gərək. Dərisinə bir qucaq pul vermişəm.»
«Onu burax, gəl evdən puluyun apar!»
«Yaxşı. Bu oldu genə bir söz.»
Laçın qəssabın əlindən bıçağı alıb kənara atdı, çəkib atı mindi və Umudu aramaq üçün xiyabana çıxdı.
Yağış yağırdı. Orda-burda incə-incə arxlarda qan axırdı!...
□

«Ata! Burda göydən qan yağır! Kimsə-kimsə ilə sirdaş dəyil. Hamının fikri qarın-qassıq yanındadır. Hər şey mənə özgədir. Həmişə qəribəyəm. Yaşayış hissi biləmə əl vermir. Adanı unuda bilmirəm. İçimdə bir boşluq hiss edirəm. Bir boşluq ki, quyu kimi məni öz kamına çəkir.»- Laçın atasına dedi.
«Qızım! Harada rahatsan gedək oraya. Amma dərddən qaçmaq çətinliyin düyünün açmaz. Dayanmaq gərək. Əyə dərddən qaçsan, dalınca gələr; və hər yerdə əli yaxanda olar.»
« Ax ata! Ata!
Haradadır o uçuş qanadlarım?...»

□

Umud şama onlarda idi. Süfrə başında:
«İstəmirsən biz inən gəlib adaya bir baş vurasan?» -Laçın ondan soruşdu.
«Çox sevinərik. Gəl gedək oranı da bir gör.» -Kərəm artırdı.
«Mən də sevinərəm. Amma indi gələ bilmərəm. Qalsın sonraya.» Umud dedi.
Laçın:
«Niyə?»
«Mənim, bu konaz iş dostlarım üçün arzularım var, bəlkə onların bir bölümünə çatdım. Mən gərək öyrənib öyrədəm.»
«Həmişə yalqız?»
«Adam yalqız doğulur, yalqız yaşayır, yalqız da ölür. Yaxçıdır ki, özünü bir sıra Uydurmalarla allatmasın. »
« Bəlkə də sən haqlısan. Qor, yalnız bir an işarar və sonra əbədi sönər. Qor yox, günəş olmaq gərək.»
«Elə buna cəhət, istəmirəm onu əldən verəm. Sən də haqlısan.»
Getmək zamanı Laçın qapıyacan Umudla ayaqlaşdı və ayrılanda onu bağrına basıb yeyin qayıtdı...

□

İdarənin ev altısında, laçını üzüqoylu lüt-əndam bir əski taxt üstünə uzadarkən əl-ayağını bağlayıblar.

O, üz-gözü yaralı, qan içində hüşdən gedibdir.
Ağac səndəllərin yanında, iki gəzmə durub bir-birlə danışırlar:
«Danışdı?»
«Yox! Bir söz deməyib.»
«Adı nədir? Haradan gəlib, nəkarədir?»
« Telefon eləmişdilər gedib onu gətirdik. Karxanada işçilərə deyirmiş ki, gərək onların Sindikası olsun, yoxsa heç kim onlara bir iş görməz.»
«İtin qızı it, sindikalistdir. Cücə toyuq olmamışdan istəyir rejim dəyişsin. O gərək diri qalıb danışsın. Biləsini vurub dağıdıbsız. Əlizdən möcüzə gəlmir.»
«Çalışdıq oyadaq oyanmadı.»
«Halı çox qolaydır. Götürün onu mərizxanaya. Əyə tələsməsək bu da öləcək. Kim olduğunu da bilmiyəcəyik.»
Onu maşına qoydular və üç gəzmə ilə mərizxanaya apardılar...

□

Sübh elə ki, Kərəm yuxudan durdu, Laçın yerində dəyil idi. Tələsik həyətə çıxdı. Gördü, o ölü kimi yerə sərilibdir!
«Bə bala burda niyə? » -Onu evə götürərək dedi.
Eləki Laçın gözünü açdı Kərəmi başı üstündə gördü:
«Ata mən haradayam?»
«Qızım sən evdəsən.»
«Umud haradadır?»
«Umud Ürəyindədir.»
«Bəs kəhər, kəhər haradadır?»
«Kəhər də evdədir, nigaran olma»

□

«Evdə kim var?» -Küçə qapısından bir səs gəldi.
«Gedim görüm qapıda kim var.» -Laçın ayağa qalxdı.
«Buyurun.» - Eşiyə çıxıb dedi.
«Bağışlayın, biz dağçıyıq. Bir yoldaşımız yaralanıbdır, istəyirik onu maşına yetirək. Yardımçı ola bilərsiniz?» -Bir cavan dedi.

«At var. Durun gətirim.»
Laçın qayıdıb atası la danışdı və Kəhəri eşiyə çəkdi.
Onlar yaralını caddəyə yetirib şəhərə göndərdilər. Maşında cavana yer olmadı. O qaldı ayrı bir maşınla getsin. Amma maşın tapılmadı.
«Gəl gedək bizə qonaq ol! İndi daha maşın tapılmaz. Sabah gedərsən». -Laçın cavana dedi.
«Çox sağ olun. İstəmirəm sizə zəhmət verəm. Elə buralarda bir yer tapıb yataram. Sabah sübh də gedərəm». -Cavan dedi.
«Bu nə sözdür? İstəyirsiz çöldə qalasız? Siz bizim qonağımızsız. Gəl gedək.» -Laçın dedi.
Onlar kəndə sarı yola düşdülər.
«Nəzərə tanış gəlirsiz. Elə bil bundan qabaq mən sizi bir yerdə görmüşəm.» -Laçın yolda dedi.
«Ola bilər. Biz dağa görə  çox buraya gəlmişik. Bəlkə də məni görübsüz.»
«Sizin adınız Umud dəyil?»
«Umud?! Bəli, belə də deyib çağırmaq olar.» -Umud heyran qalaraq dedi.
«Siz o məhbus daneşcu`suz ki, fəhləlik eləyir?
«Bəli. Amma siz bunları haradan bilirsiz?!»
«Mən bir zad bilmirəm. Mən yalnız öz kabuslarımı bilirəm.»
«Kabuslarınızı?!»
«Hən. Kabuslarımı . Meylin var onları hiss edəsən?»
«Əlbəttə.»
«Baxın:
**Laçın çaparaq atını qovurdu. Kəhər birdən-birə durdu.....»**
Laçın başının qəza-qədərini deyib qurtardı.
«Neçə il dərs oxuyubsan?» -Umud soruşdu.
«Doqquz il. Qardaşım məni həvəsləndirdi, yazıb-oxumağa. Dərsimin kənarında başqa kitablar da oxudum. Bir gün qardaşımı tutub apardılar və heç bir xəbər-ətəri də çıxmadı.
Bilmirəm başına nə bəla gətirdilər. Hərdən bir onu yuxuda görürəm. Bir gecə yoxuma gəlmişdi, üzümü əllərinin içinə tutub

ağladım. Dedi ağlama! Çalış yerimi doldurasan. Amma mən bu xarabada, necə onun yerini doldura bilmirəm?... Onu apardılar, nə səsi çıxdı nə də səmiri. Hər yerə qaçdıq heç bir xəbər olmadı, getdi ki, getdi, elə bil heç yox idi! Daneşqahının üçüncü ili idi. Onu apardılar, mənnən atamı da dəli elədilər. Buda bizim yaşadığımız çevrədir, görürsən ki, hər şey daş-duza dönübdür. Axır-aqibətimiz, sonumuz budur...»
«Adam qalıb nə desin. Bəlkə də yaşayış get-bə-get öz yolunu tapdı...» Umud dedi...

□

Qaranlıq düşmüşdü. Kərəm əmi sahildə nigaran və gözü yola idi. Yorğun quşların və ölümcül dalğaların qüssəli səsindən, duzlağın iyisindən, özünü kədərli hiss edirdi. Uzaqda bir neçə qaraltı sallana-sallana ona sarı gəlirdilər.
Eləki onları tanıdı ürəyi rahatlaşıb onlara sarı getdi.
«Ata! Bağışlayın ki, gec gəldim. Qonağımız var.» -Laçın salam verib dedi.
Kərəm qaranlıqda qonağa baxıb:
«Salam, Umud, balam sən hara, bura hara?» -Dedi.
Və onu bağrına basıb üz-gözündən öpdü.
«Kərəm əmi dağ-dağa yetişməz, adam-adama yetişər.» -Umud dedi.
«Səni gördüm çox sevindim. Xoşgəldin, göz üstə. Qapıda səsiyin eşitdim tanış gəldi, amma yaxçı tanıya bilmədim.»
«Qızın məni tanıdı. Görməmiş! Çox şaşqındım.»
«Laçın belədir. O qədər səndən deyib danışmışıq ki, Umud olub yaşayışımızın bir parçası. Elə bil həmişə bizim yanımızdasan. Muradın iyisini səndən alırıq.»
« Böyüyümüzsüz, lütfünüz var »
«Nə xəbər? Nə yaxçı yolun bu yana düşdü?»
«Sağlığın. Başımız bənddir, gördüyün kimi. Söylə, hiss edirəm yaşayışınız çox dəyişibdir.»

«Həyə, yaşayış çox dəyişibdir. Laçının ana-bacısı fot elədi. Oğlum Muraddan heç bir xəbər yoxdur.»
«Laçın dedi; ürək dağlanır. İndi belə bir vəziyyətdə çoxları dərd çəkir. Qazan qaynayır, bu xarabada. Bir gün də daşacaq və daş-daş üstündə qalmayacaq. Amma sonrası nə olacaqdır, kimsə bilmir. Genə bir cəlladın elinə düşəcəyik ya ləyaqət göstərib bir adam üzlü, dəyərli, yaşayış sahabı olacayıq. Kimsə bilməz.»
«Nə dinc var, nə də yaşayış. Nə yuxuda, nə də oyaqlıqda.»-Kərəm artırdı.
«Hər şey kabusdur.» -Laçın dedi.
Kəhər qulaqlarını şüşlədi. Qalın bir duz dumanı hər yeri bürümüşdü....

□

Bir Vən maşını kərəmin evi qabağında dayandı. Bir kəndli, üç kişi ilə bərabər yendilər. Kəndli əli ilə Kərəmi göstərib dedi:
«Odur ba, ordadır, gəlir. Genə də öz-özü ilə danışır. Bu gün nahar çağı, çöldən qayıdıb gələndən sonra, elə-beləsinə əl-qolun ölçərkən deyinə-deyinə gəzir.»
Onlar kərəmə sarı yügürüb :
«Əmi gəl gedək uşaqlarıyın yanına.» -Dedilər.
Və tələsik onun əllərini buxovladılar.
Kərəm onları qırağa dartıb:
«Ötürün məni, ötürün. Mənim qonağım var; qızım burdadır.» -Dedi.
«Gəl səni oğluyun yanına aparırıq.»
Onlar Kərəmi qolundan tutub çəkə-çəkə maşına basdılar. Və sürüb gedilər.

□

Lalə Kəhərə su verirdi və dodaq altı oxurdu:
Bu ada əsli ada
Kəsilməz nəsli ada
Gülünü dərdilər

Çəməni yaslı ada.

Güləyən quşların səsi havanı bürümüşdü.

□

Son dəfə ki, Laçını gördüm tut ağacı altında idi, tutluqda.
Miz-səndəl var idi. Üz-bə üz, göz-gözə oturmuşduq danışırdıq. O gülürdü və bir incə yel tellərini oynadırdı.
Birdən yana baxıb dedi:
«İki gəzmə bizi güdür. Burada danışa bilmərəm, gedək...»
Bu an, heç vaxt məni buraxmır.

□

“ Gəlməsən əlimdən qurtulacağın yoxdur!”
Laçın söz göndərib, gedirəm adaya. Murad qayıdıb, Kərəm əmi sağalıb və
Kəhər kökəlibdir. Laçın sevincdən yerdə-göydə durmur.
İstirəm dostlarımı görəm.